# Ali Məqamlı Rəhbər şəhid Zeynəddin qardaşlarının atası Hacı Əbdülrəzzaq Zeynəddinin vəfatı ilə əlaqədar başsağlığı verdi - 4 /Feb/ 2011

İslam İnqilabının Ali Məqamlı Rəhbəri Həzrət Ayətullah Xamenei şəhid Zeynəddin qardaşlarının atası Hacı Əbdülrəzzaq Zeynəddinin vəfatı ilə əlaqədar onun ailəsinə başsağlığı verdi.

**Başsağlığı müraciətinin tam mətni:**

Aliməqam şəhidlərin atası, cənab Hacı Əbdülrəzzaq Zeynəddinin vəfatı ilə əlaqədar, mərhumun möhtərəm ailə üzvlərinə, xüsusilə də o şəhidlərin fədakar anasına, habelə bütün dostlarına, sevənlərinə və döyüş yoldaşlarına başsağlığı verirəm.

Bu azadə və mömin insan cürbəcür sınaqlardan səbir və başucalığı ilə çıxıb və inşallah, hal-hazırda Allaha qovuşaraq saysız-hesabsız ilahi mükafatlardan bəhrələnməkdədir. Uca Yaradandan o mərhumun ruhuna ən ali dərəcələri nəsib etməsini diləyirəm.

***Seyid Əli Xamenei***

***14 Bəhmən 1389***

Materialdan istifadə edərkən WWW.LEADER.İR saytına istinad zəruridir!